1_Layout 1 29.04.2021 16:44 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 8 (598)

1 may 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar



Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar.

Dövlətimizin başçısı, birinci xanım və qızları Cəbrayıl rayonunun girişində "Cəbrayıla xoş gəlmişsiniz!" sözləri yazılmış lövhənin qarşısına gəliblər.

Prezident İlham Əliyev:

- Cəbrayıl rayonuna gəlmişik. Vaxtilə Cəbrayıl rayonunun girişində ucaldılmış lövhəni biz indi yenidən qurduq və eyni formada, eyni dizaynla. Biz "Cəbrayıla xoş gəlmişsiniz!" lövhəsini bərpa etdik. Sovet vaxtında bu abidə, - əgər belə demək mümkündürsə, - qoyulmuşdur, ucaldılmışdır və işğal dövründə tamamilə sökülmüş, paslanmışdır. Bunun paslanmış görüntüləri artıq mətbuatda da var. Ona görə tarixi ədaləti bərpa edərək, Cəbrayıl rayonunun girişində yerləşən bu "Xoş gəlmişsiniz!" lövhəsini, abidəni biz yenidən bərpa etdik. Azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bütün şəhərləri, kəndləri bərpa edəcəyik.

x x x

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışında iştirak ediblər.

Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verib.

Hərbi hissədə yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları ilə görüşüb və çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Əziz sərhədçilər, bu gün ölkəmizin həyatında əlamətdar bir gündür. Azərbaycan-İran sərhədində Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissəsi açılır. Bu açılışda mən iştirak edirəm və bu, bir daha Sərhəd Xidmətinin işinə verdiyimiz diqqətin təzahürüdür.

Vətən müharibəsi dövründə Azərbaycan-İran sərhədi tam bərpa edilib, işğal altında olmuş 132 kilometr sərhəd bərpa edilibdir. Müharibədən dərhal sonra sərhəd boyunca bütün lazımi istehkam, mühafizə işləri görülməyə başlamışdır. Bu hərbi hissənin fəaliyyətə başlaması bunun bariz nümunəsidir. Bütün sərhəd boyunca - həm Azərbaycan-İran, həm Azərbaycan-Ermənistan sərhədləri boyunca lazımi işlər aparılır.

Azərbaycan-İran sərhədi dostluq sərhədidir. Bu sərhədin qorunması Azərbaycan-İran əlaqələrinin inkişafı üçün də çox böyük önəm daşıyır. Bizim İran İslam Respublikası ilə digər istiqamətlərdə sərhədimiz var və bu, sözün əsl mənasında, dostluq, əməkdaşlıq sərhədidir. Hər iki ölkənin sərhəddən keçən vətəndaşları bundan faydalanırlar. Eyni zamanda, ildən-ilə artan yüklərin həcmi Azərbaycan-İran əlaqələrinin inkişafından xəbər verir.

Buraya yaxın məsafədə yerləşən Xudafərin körpüsü Azərbaycan-İran dostluğunun rəmzidir. Xudafərin körpüsü Müstəqillik Günündə - keçən il oktyabrın 18-də düşməndən azad edilmişdir. Bu ərazinin düşmən-dən azad edilməsində sərhədçilər xüsusi rol oynamışdır. Azadlıq mübarizəmiz məhz bu istiqamətdən başlamış və Vətən müharibəsi 44 gündən sonra Ordumuzun, Silahlı Qüvvələrimizin Qələbəsi ilə nəticələnmişdir. Bu ərazidə şiddətli döyüşlər gedirdi, hər bir kənd uğrunda şiddətli döyüşlər gedirdi, biz şəhidlər verirdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır. İtkilərə baxmayaraq, biz hər gün irəli gedirdik. 44 günlük müharibə dövründə bir gün belə geriyə addım atmamışıq. 44 gün ərzində hər bir gün Zəfər günü idi. 44 gün ərzində Ermənistanın bütün cəhdlərinə baxmayaraq, bir dənə də uğurlu əməliyyat keçirə bilməmişlər. Bax, bu istiqamətdə onlar əks-hücum əməliyyatı planlaşdırmışdılar və bunu həyata keçirməyə başlamışdılar. Amma bu, onların sonunun başlanğıcı olmuşdur. Çünki həmin əks-hücum əməliyyatı Azərbaycan Silahlı Qüvvələri tərəfindən tamamilə darmadağın edilmişdir, düşmən böyük sayda itki vermişdir və onların texnikası məhv edilmişdir. Biz məhz bu istiqamətdən – Füzuli-Cəbrayıl istiqamətindən bir çox müdafiə xətlərini keçərək azadlığa yol açmışıq.

Bu gün müzəffər Azərbaycan Silahlı Qüvvələri qarşıda duran bütün vəzifələri icra edir. Eyni zamanda, sərhədçilərimiz hazırda işğaldan azad edilən ərazilərdə Azərbaycan-Ermənistan sərhədini də qoruyur. Bu sərhəd də bərpa edilib və sərhəd boyunca bütün lazımi infrastruktur işləri aparılır, bütün texnika səfərbər edilib. Bu sərhədin uzunluğu 500 kilometrə yaxındır. Bu sərhəd 30 ilə yaxın müddət ərzində işğalçı qüvvələrin əlində idi. Biz Vətən müharibəsində Qələbə qazanaraq bu sərhədi də tam bərpa etdik, Zəngilan və Qubadlı rayonlarını, Laçın rayonunun bir hissəsini döyüşərək azad etdik. Laçın rayonunun böyük hissəsini və Kəlbəcər rayonunu düşmən artıq məcbur olub kapitulyasiya aktını imzalayaraq bizə qaytarıb. Hazırda o ərazilərdə lazımi işlər aparılır.

Ancaq əfsuslar olsun ki, Ermənistanda baş qaldıran revanşist qüvvələr yenə də bizə qarşı ittihamlarla çıxış edərək, bizə qarşı ərazi iddiası irəli sürürlər. Onlara, bax, buradan xəbərdarlıq etmək istəyirəm ki, bu çirkin əməllərdən əl çəksinlər, yoxsa onların axırı pis olacaq. Biz Vətən müharibəsi dövründə kimin kim olduğunu göstərdik. Dəmir yumruq düşmənin başını əzdi. Bu yaxınlarda Azərbaycan-Ermənistan sərhədinin Zəngilan istiqamətində bizim sərhədçilərimizə qarşı edilən hərbi təxribat sonuncu belə cəhd olmalıdır. Biz təmkinlik göstərərək bu təxribata cavab vermədik. Amma bu, sonuncu xəbərdarlıqdır. Əgər bir daha buna oxşar cəhd göstərilərsə, düşmən yerindəcə məhv ediləcək. Biz öz sərhədimizi qoruyuruq və bundan sonra da qoruyacağıq. Hər bir ölkənin sərhədi onun dövlət rəmzlərindən biridir. Azərbaycan öz sərhədlərini, ərazi bütövlüyünü tam bərpa edib. Bizim Silahlı Qüvvələrimiz rəşadət, qəhrəmanlıq göstərərək Vətən müharibəsində Zəfər çaldılar. Sərhədçilərin ümumi zəfərimizdə rolu çox böyükdür. Mən bunu qiymətləndirirəm. Təsadüfi deyil ki, bir çox hərbçilər dövlətimizin yüksək orden və medalları ilə təltif edilmişlər.

Mən sizi bir daha bu hərbi hissənin açılışı münasibətilə təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

x x x

Dövlətimizin başçısı sərhədçilərlə birgə foto çəkdirib.

x x x

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonunun Ağalı kəndinə gəliblər.

Kənd təsərrüfatı naziri İnam Kərimov dövlətimizin başçısına və birinci xanıma məlumat verib ki, birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəklər.

Dövlətimizin başçısı xarici şirkət nümayəndələri ilə videoformatda söhbət edib.

Sonra dövlətimizin başçısı Zəngilan rayonunun sakinləri ilə görüşüb.

Daha sonra Prezident İlham Əliyev Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin, eləcə də Zəngilanda Beynəlxalq Hava Limanının təməlini qoyub.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Heydər Əliyev Fondu tərəfindən bərpa olunacaq Zəngilan məscidinə gəliblər.

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva üzərində "Zəngilan məscidinin təməli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 26 aprel 2021-ci il tarixində qoyulmuşdur" sözləri yazılmış xatirə daşını məscidin divarına hörüblər.

**"AZƏRTAC"ın materialları əsasında hazırlanıb.**

## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



**Aprelin 22-də Daxili İşlər Nazirliyində videokonfrans formatında mülkiyyət əleyhinə cinayətlər, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə, cinayət işlərinin istintaqı və təhqiqat sahəsində fəaliyyətin nəticələrinə və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov kriminogen duruma təsiri, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi baxımından bu istiqamətlərdə ətraflı müzakirələrin aparılmasının və qarşıda duran vəzifələrin müəyyən edilməsinin zəruriliyini bildirib.

Gündəlikdəki məsələlərlə bağlı Baş Cinayət Axtarış İdarəsinin rəisi polis general-mayoru Arzu Daşdəmirov, Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi polis polkovniki İslam Hümbətov və Baş İstintaq və Təhqiqat İdarəsinin rəisi polis general-mayoru Emil Usubov məruzə edərək həyata keçirilən tədbirlərdən, əldə edilmiş nəticələrdən danışıblar.

Məruzəətrafı çıxışlarda aidiyyəti ərazi orqanlarının rəisləri görülmüş işlər və mövcud olan çatışmazlıqların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə məlumat veriblər.

Kollegiya iclasına yekun vuran general-polkovnik V.Eyvazov cari ilin birinci rübündə asayişin və ictimai təhlükəsizliyin təmini ilə bağlı qarşıya qoyulmuş vəzifələrin bütövlükdə layiqincə yerinə yetirildiyini, cinayətkarlığa qarşı mübarizədə, insan hüquq və azadlıqlarının qorunması sahəsində əldə olunmuş müsbət nəticələrin hesabat dövründə də qorunub saxlanıldığını və inkişaf etdirildiyini diqqətə çatdırıb. Həmçinin, xidməti fəaliyyətdə səmərəliliyin artırılması, xüsusən vətəndaşların narkotiklərin ziyanlı nəticələrindən qorunması, həmin vasitələrin tranzit daşınmasının qarşısının alınması, bu işin sərhədyanı bölgələrdə daha da gücləndirilməsi üzrə tapşırıq və tövsiyələrini verib.

Eyni zamanda, vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qarşıya qoyduğu əsas vəzifələrdən olduğunu xatırladan nazir bütün müraciətlərə həssaslıqla yanaşılmasının, cinayətlər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsinin, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə polisin səlahiyyətinə aid vəzifələrin peşəkarlıqla yerinə yetirilməsinin vacibliyini nəzərə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının şəxsi heyəti bundan sonra da qanunvericiliklə müəyyən edilmiş funksiyaları layiqincə həyata keçirəcək, ölkədə sabitliyin, əmin-amanlığın davamlılığının təmin edilməsi üçün qüvvə və bacarığını əsirgəməyəcəkdir.

2 -3_Layout 1 29.04.2021 16:50 Page 1



# Daxili Qoşunların Hərbi Şurasının videokonfrans formatında iclası keçirilib

**Aprelin 23-də Daxili Qoşunların Baş İdarəsində videokonfrans formatında “2021-ci ilin müvafiq dövrü ərzində Daxili Qoşunlarda hərbi intizamın vəziyyəti haqqında” Hərbi Şuranın iclası keçirilib.**

İclasda giriş sözü ilə çıxış edən Hərbi Şuranın sədri, daxili işlər nazirinin müavini-daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov qeyd edib ki, Daxili Qoşunlarda hərbi intizamın vəziyyəti, tərbiyə işinin təşkili, qanunçuluğun möhkəmləndirilməsi üzrə fəaliyyətin nəticələri və qarşıda duran vəzifələr döyüş hazırlığın artırılmasında əsas aspektlərdən biridir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandan, Respublika Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında erməni işğalçılarına qarşı aparılan 44 günlük Vətən müharibəsində hərbi qulluqçularımızın mənəvi-psixoloji vəziyyətinin yüksək olması, onların Vətən torpaqlarının azad edilməsi kimi ali amal ruhunda tərbiyə edilməsi qazanılmış şanlı qələbənin əsas şərtlərindən biri olduğunu bir daha təsdiqlədi. Bu zəfərin qazanılmasında Daxili İşlər Nazirliyinin Daxili Qoşunları da üzərinə düşən şərəfli missiyanı yerinə yetirib.

General-leytenant Şahin Məmmədov iclasın gündəliyini elan etdikdən sonra 2021-ci ilin müvafiq dövrü ərzində Daxili Qoşunlarda hərbi intizamın vəziyyəti barədə daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarə rəisi general-mayor Vidadi Əliyev məruzə ilə çıxış edib.

Məruzədə bildirilib ki, ötən müddət ərzində şəxsi heyətlə tərbiyə işi qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsinə, xəsarətalma hallarının və nizamnamədənkənar münasibətlərin qarşısının alınmasına, komandir və rəislərin şəxsi nümunəliyinin təmin olunmasına, kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin yaradılmasına, hərbi qulluqçuların ictimai-siyasi hazırlığı üzrə biliklərinin artırılmasına yönəldilib. Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Qələbənin əhəmiyyəti, möhtəşəm dövlət quruculuğu prosesi, işğal altında olan torpaqlarımızın azad edilməsi ilə dövlətimizin beynəlxalq arenada nüfuzunun artması şəxsi heyət arasında geniş təbliğ edilib.





Həmçinin, hazırda hərbi qulluqçularımızın polis əməkdaşları ilə birgə işğaldan azad edilən ərazilərdə layiqincə xidmət apardıqları, təhlükəsizlik tədbirlərinin təmin olunmasında iştirak etdikləri, qazanılan nailiyyətlərin Azərbaycan Respublikasının Prezidenti və daxili işlər naziri tərəfindən yüksək qiymətləndirilməsi də qeyd olunub.

Bununla yanaşı, məruzədə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə təsdiq edilmiş aidiyyəti dövlət proqramlarının tələblərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi ilə bağlı şəxsi heyət arasında maarifləndirmə işinin aparıldığı, gənclərin mənəvi-psixoloji durumunun yüksəldilməsi, sağlam həyat tərzi keçirmələri, narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirildiyi bildirilib.

Çıxışının sonunda general-mayor V.Əliyev Baş İdarənin şöbə və xidmət rəisləri, hərbi hissələrin komandanlıqlarının əldə olunan nailiyyətlərin qorunması, eləcə də mövcud nöqsanların qısa müddətdə aradan qaldırılması üçün əzmlə çalışacağına, hərbi intizamın vəziyyətinin yüksəldilməsi, xidməti-döyüş tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsi istiqamətində hər bir hərbi qulluqçunun əlindən gələni əsirgəməyəcəyinə, qarşıya qoyulan tələb və vəzifələrin yerinə yetirilməsinə daha məsuliyyətlə yanaşacağına əminliyini ifadə edib.

Daha sonra hərbi hissə komandirləri və komandirlərin tərbiyə işləri üzrə müavinlərinin mövcud vəziyyət, diqqətçəkən nöqsan və çatışmazlıqların yaranma səbəbləri barədə hesabat-çıxışları dinlənilib. Çıxışlar zamanı qeyd olunub ki, ümumilikdə, hərbi hissələrin şəxsi heyətinin mənəvi-psixoloji durumu qarşıya qoyulmuş tapşırıqlardan irəli gələn vəzifələrin tam həcmdə yerinə yetirilməsi üçün qənaətbəxşdir.

Müşavirəyə yekun vuran general-leytenant Ş.Məmmədov aidiyyəti vəzifəli şəxslərə tapşırıqlar verib, Daxili Qoşunların şəxsi heyətinin bundan sonra da xalqa və dövlətə sadiqliyini nümayiş etdirərək ləyaqətlə xidmət edəcəyinə, həmçinin, ictimai təhlükəsizliyin, vətəndaşlarımızın əmin-amanlığının etibarlı qorunması üçün daim var qüvvəsi ilə çalışacağına əminliyini ifadə edib və onlara fəaliyyətlərində uğurlar arzulayıb.

**Mətbuat xidməti**

# HƏR ZAMAN YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI NÜMAYİŞ ETDİRƏN HƏRBİ HİSSƏ

“Daxili Qoşunların 16077 saylı hərbi hissəsində şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi, döyüş ruhunun formalaşdırılması və xidmət keyfiyyətinin artırılması qarşıda duran prioritet məsələlərdir. Komandanlıq tərəfindən hərbi qulluqçular qarşısında qoyulan tələblərlə yanaşı, hərbi şəhərciyin ərazisində məhz onların rifahı üçün apardığımız abadlıq və yenidənqurma işləri müəyyən olunmuş tapşırıqların layiqincə yerinə yetirilməsi üçün nəzərdə tutulub”. Bu sözləri 16077 saylı hərbi hissənin komandiri polkovnik Vurğun Abbasov söylədi. Bildirdi ki, hərbi hissənin şəxsi heyəti regionda ictimai təhlükəsizliyi təmin etməyə, qarşıya qoyulmuş istənilən tapşırığı icra etməyə tam hazırdır.





Əminliklə demək olar ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən göstərilən diqqət və qayğı şəxsi heyətin məsuliyyətini artırır, onları nümunəvi xidmətləri ilə fərqlənməyə sövq edir. Bütün dediklərimizin təsdiqini keçən il ölkəmizdə baş verən Vətən müharibəsi zamanı gördük. Müharibə başlandığı gündən etibarən uzun illər işğal altında olan torpaqlarımızın azad olunmasında Daxili Qoşunların digər hərbi hissələri kimi 16077 saylı hərbi hissə də yaxından iştirak edib və şanlı zəfər yolumuza öz töhfəsini verib. Döyüş əməliyyatlarına cəlb olunaraq qəhrəmanlıq nümunəsi göstərən hərbi qulluqçulardan 4 nəfəri yaralanıb.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Fariz Fərəcov, öz növbəsində, şəxsi heyətin mənəvi-psixoloji durumunun qənaətbəxş olduğunu nəzərimizə çatdırdı. Qeyd etdi ki, hərbi qulluqçularda döyüş hazırlığının şərtləndirən ən vacib amillərdən biri də mənəvi-psixoloji vəziyyətin normal olmasıdır. 44 günlük müharibədə düşmən üzərində qələbəmizin əsas səbəbi də hərbçilərin döyüş ruhunun yüksək olması idi. Həmin dövrdə hərbi hissəmiz üçün hissə və bölmələrimizin burada cəmlənməsində, döyüş və arxa cəbhə təminatında aparıcı rol oynayıb. Şanlı qələbəmizdən sonra işğaldan azad edilmiş rayonlarda komendant xidmətinin təşkili və aparılması kimi mühüm vəzifə də bu hərbi hissənin üzərinə düşüb. Hərbi qulluqçular döyüş əməliyyatları zamanı üzərinə düşən vəzifələri peşəkarlıqla yerinə yetirdiklərinə görə ölkə başçısı və daxili işlər naziri tərəfindən müxtəlif orden və medallarla təltif olunublar.

Polkovnik-leytenant F.Fərəcov hərbi hissədə 2020-ci ilin yekun yoxlamasını “əla” və “yaxşı” qiymətlərlə başa vuran xüsusi təyinatlı dəstə, xüsusi vasitələrin tətbiqi dəstəsi, komendant bölüyü, minaatan batareyanın yüksək döyüş hazırlığı, nizam-intizamı, nümunəvi xidməti ilə fərqləndiyini xüsusilə qeyd etdi.

### “VAŞAQ”LAR ƏSL DÖYÜŞÇÜ KİMİ YETİŞİBLƏR

Xüsusi təyinatlı dəstənin əsas vəzifələri istər silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsi, istər ictimai təhlükəsizliyin pozulması, istərsə də təbii fəlakətlər zamanı qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaqdır. Bu isə hər bir xüsusi təyinatlıdan, ilk növbədə, yüksək döyüş hazırlığı, möhkəm hərbi intizam və “dəmir” iradə tələb edir. Bu mənada hərbi hissənin “Vaşaq” şərti adı verilmiş xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçuları xidmətdə sayıqlıq və əzmkarlıq nümayiş etdirirlər.

İlin istənilən fəslində, müxtəlif relyefə məxsus ərazilərdə adına uyğun çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan dəstənin təlim proqramları hissənin digər bölmələrinin müvafiq tədris proqramlarından fərqlənir. Hərbi qulluqçudan kifayət qədər fiziki güc və möhkəm iradəyə malik olmağı tələb edən bu təlim proqramlarında nəzərdə tutulmuş məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq göstərərək, qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlirlər. Qeyd edim ki, dəstə bu dəfə də ənənəsinə sadiq qalaraq, ötən ilin yekun yoxlamasını müvəffəqiyyətlə başa vurub, hərbi hissənin bölmələri arasında birinci yerə layiq görülüb.

Dəstə komandirinin vəzifəsini müvəqqəti icra edən kapitan Orxan Daşdəmirov bildirdi ki, şəxsi heyətin döyüş təlimi daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilib. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji tərbiyəsi, düzgün dünyagörüşlərinin formalaşması da əsas məqamlardandır.

O, xüsusi təyinatlıların hazırlığını yüksək qiymətləndirərək, şəxsi heyətin döyüş tapşırığını yerinə yetirməyə hər zaman hazır olduğunu bildirdi: “Keçirilən məşğələlər zamanı onların hərbi bilik və bacarıqlarını artırmalarına xüsusi fikir verilir. Əsas diqqətimizi atəş və fiziki hazırlıq məşğələlərinə, həmçinin, səhra şəraitində taktiki hazırlıq üzrə praktiki fəaliyyətə yönəldirik. Hərbi topoqrafiya üzrə şəxsi heyətin biliklərinin artırılması da məşğələlər zamanı diqqət yetirilən vacib amillərdəndir. Hər bir xüsusi təyinatlının müxtəlif miqyaslı xəritələrdən və GPRS qurğusundan fərdi qaydada sərbəst istifadə edə bilməsinə xüsusi fikir verilir”.

Onun sözlərinə görə, məşğələlər zamanı hər bir hərbi qulluqçunun fərdi hazırlığı xüsusilə diqqətdə saxlanılır. Şəxsi heyətin real şəraitə uyğun operativ şəkildə qərar qəbul etmək bacarığı qiymətləndirilir.

Kapitan O.Daşdəmirov, həmçinin, vurğuladı ki, şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, ekstremal şəraitlərdə dayanıqlığın, fəal və qətiyyətli fəaliyyətin nümayiş etdirilməsi, eləcə də yüksək intizamın saxlanılması və sayıqlığın aşılanması, fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsi xüsusilə diqqət mərkəzində saxlanılır.





“Yaradılmış bütün bu şəraitdən düzgün və səmərəli istifadə edərək keçirilən məşğələ və təlimlərin keyfiyyətinin artırılması məhz döyüş hazırlığının yüksəldilməsinə xidmət edir. Yüksək döyüş hazırlığına, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılmasına nail olmanın əsasında isə şəxsi heyətin intizamı və düzgün istiqamətə köklənmiş mənəvi-psixoloji durumu dayanır” – deyə fikirlərini bildirən kapitan O.Daşdəmirov bu baxımdan bəzi məqamlara aydınlıq gətirdi: “Ümumilikdə götürdükdə, dəstə özü də bir hərbi kollektivdir. Dəstənin qarşısında qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi isə hərbi qulluqçuların birgə fəaliyyətindən asılıdır. Şəxsi heyətin hərbi intizamının möhkəmləndirilməsi, hərbi kollektivdə dostluq və yoldaşlıq məfhumunun aşılanması, eləcə də mənəvi-psixoloji durumun düzgün məcraya yönləndirilməsi ümumi məqsədə çatmanın əsas meyarı olmaqla yanaşı, tərbiyə işinin qarşısında duran vacib vəzifələrdəndir”.

Kapitan O.Daşdəmirov şəxsi heyət arasında yüksək döyüş hazırlığı və intizam nümayiş etdirən hərbi qulluqçulardan baş çavuşlar Anar Əliyev, Cavid Qəhrəmanov, Məhəmməd Mahmudov, Fəxri Həbibi, çavuş Vüsal Cabbarovun adlarını çəkdi.

Biz də, öz növbəmizdə, dəstənin şəxsi heyətinə hər zaman olduğu kimi bundan sonrakı xidməti fəaliyyətində də ancaq uğurlar arzu edirik.

**baş leytenant Nigar Ağayeva**

3_Layout 1 29.04.2021 16:55 Page 1



*Şəhidlərimiz*

# Son nəfəsinədək düşmənə qarşı mərdliklə döyüşən xüsusi təyinatlı...

Azərbaycanın 30 ilə yaxın müasir müstəqillik dövrünün 28 ili respublikamızın ərazisinin bir hissəsinin Ermənistanın hərbi təcavüzü nəticəsində işğal altında qalması ilə keçib. Bir milyona yaxın soydaşımız həmin illəri doğma yurd həsrəti ilə yaşayıb. Minlərlə məcburi köçkün vətəndaşımız, soyqırım qurbanları və şəhidlərin doğmalarının bir qismi düşməndən qisas alındığı, onun məğlub edildiyi günləri görmədən dünyadan köçüb. Qarabağlı olaraq Qarabağsız böyüyən yeni nəsil yetişib. Bir sıra mədəni və təbii sərvətlərimiz işğal dövründə həmişəlik olaraq itirilib. Şübhəsiz ki, dövlətimiz və xalqımız üçün belə bir ağır gerçəklik qəbuledilməz idi. Torpaqlarımızın işğalına sülh yolu ilə son qoyulacağına bu uzun illər ərzində heç kəsdə inam qalmamışdı. Məhz Vətən müharibəsinin başlaması və tarixi zəfərimizlə başa çatması dövlətimizin həyatında şərəfli bir səhifənin bünövrəsini qoydu. 2020-ci ilin 10 noyabr tarixində qalib dövlətə çevrildik.

Azərbaycanı layiq olduğu, haqq etdiyi qalib dövlətə çevirən igid oğulların fədakarlığı unudulmazdır. Onların hər birinin döyüş yolundan iftixarla danışılır, şəhidlərin xatirəsinə və qazilərə ümumxalq ehtiramının şahidi oluruq. Şəhidlər bizə örnək olan qeyrət məktəbini miras qoyublar.

Vətən müharibəsində ərazi bütövlüyümüzün bərpası naminə həyatını qurban verən Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının xüsusi təyinatlıları siyahısında gizir Tağızadə Cahid Vahid oğlunun da adı var. O, 12 fevral 1988-ci ildə Bərdə rayonunun Mirzalıbəyli kəndində anadan olub. Vahid Tağızadə və Reyhan Tağızadənin 3 oğlundan biri, ailənin ilk övladı olan Cahid valideynləri tərəfindən el-oba qədrini bilən, xeyirxah, ailəcanlı, zəhmətkeş, dürüst, ləyaqətli gənc kimi yetişdirilib. Mirzalıbəyli kəndindəki Əsman İsmayılov adına tam orta məktəbi bitirib. Müsbət şəxsi keyfiyyətlərinə görə həmkəndlilərinin hörmətini qazanıb. Cahid yeniyetməlik yaşlarından idmana maraq göstərib, fitnes, ağırlıqqaldırma ilə məşğul olub. Hələ orta məktəbdə oxuduğu illərdə Cahiddə hərbçi peşəsinə rəğbət yaranıb. Bu rəğbəti barədə ailə üzvləri və yoldaşları ilə söhbətlərində danışıb. Hərbi xidmət haqqında mətbuatda, televiziyada verilən informasiyalara xüsusi diqqət yetirib.



Onun uşaqlıq, yeniyetməlik, gənclik illəri Birinci Qarabağ müharibəsi və atəşkəs dövrünə təsadüf edib. Yaşadığı Bərdə rayonu ön cəbhəyə yaxın olduğundan, Birinci Qarabağ müharibəsi zamanı buraya xeyli sayda məcburi köçkün pənah gətirib. Döyüş zonasına göndərilən hərbi texnika və canlı qüvvədən ibarət karvanlar buradan dəfələrlə keçib. Həmçinin, rayondan yüzlərlə gənc o vaxt torpaqlarımızın müdafiəsinə yollanıb. Bununla yanaşı, o dövrdə rayonun tibb müəssisələrinə yaralılar gətirilib, habelə neçə-neçə şəhidin tabutu müxtəlif ünvanlara aparılıb. Tağızadə ailəsinin yaddaşında bütün bunlar izsiz qalmayıb.

2006-cı ilin iyul ayında Cahid müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların sıralarında hərbi xidmət borcunu vicdanla yerinə yetirib. 2008-ci ilin yanvar ayında 67987 saylı hərbi hissədən ehtiyata buraxılıb. Cahid bir neçə ay sonra yenidən Daxili Qoşunların sıralarına qayıdıb. 2008-ci ilin iyun ayının 25-dən etibarən qoşunların 16077 saylı hərbi hissəsinə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Burada minaatan batareyasının minaatan taqımında minaatan komandiri vəzifəsinə təyin edilib. Hərbi xidmətdə əzmkarlığı və çalışqanlığı ilə komandanlığın etimadını doğruldub. O, 16077 saylı hərbi hissədə motoatıcı bölükdə zenit-raket heyətinin rəisi, xüsusi təyinatlı dəstənin həmlə qrupunda yarımqrup komandiri vəzifələrinə irəli çəkilib. Müvafiq kursu müvəffəqiyyətlə başa vuraraq "gizir" hərbi rütbəsinədək yüksəlib. 2012-ci ilin dekabr ayından xidmətini davam etdirmək üçün qoşunların 17074 saylı hərbi hissəsinə keçirilib. Hərbi hissədə xüsusi təyinatlı dəstənin həmlə qrupunda yarımqrup komandiri, habelə atəş təminatı qrupunda minaatan yarımqrup komandiri, eləcə də atəş təminatı qrupunda dəzgahlı qumbaraatan yarımqrupunun komandiri kimi ona etibar olunan vəzifələrdə öz təşkilatçılığı, icraçılığı, tabeliyindəki şəxsi heyətlə işləmək bacarığı, qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsinə məsuliyyətlə yanaşmağı ilə fərqlənib.

2013-cü ilin iyul-oktyabr aylarında Cahid Türkiyə Cümhuriyyətinə ezam edilərək, Eyirdir-İspartada yerləşən Türkiyə Silahlı Qüvvələrinin Dağ Komando Məktəbi və Təlim Mərkəzi Komandanlığının Dağ komando kursunu keçib. Xüsusi təyinatlı kimi belə bir kursu bitirməsi peşəkar hazırlığının inkişaf etdirilməsi və qiymətli təcrübə toplaması baxımından onun fəaliyyətində xüsusi rol oynayıb.

Vətən müharibəsinədək hərbi xidməti dövründə gizir C.Tağızadə III dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə mükafatlandırılıb, şəxsi işində ona tətbiq olunan müxtəlif növ həvəsləndirmələr də qeyd edilib.

2020-ci ilin avqust ayında Cahid Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində təşkil olunan xüsusi təyinatlı bölmələrin taktiki təlimlərində iştirak edərək, döyüş hazırlığı baxımından öz məharəti ilə seçilib.

Vətənin müdafiəsinə, torpaqlarımızın işğalına son qoyulmasına hazır olmaq əqidəsi ilə xidmət edən Cahid və silahdaşları üçün ən şərəfli və çətin sınaq anı nəhayət yetişdi. 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi xüsusi təyinatlılarımızın yüksək döyüş qabiliyyətinə malik olduqlarını göstərdi. 17074 saylı hərbi hissədən ön cəbhəyə göndərilən gizir C.Tağızadə müharibənin ilk günündən döyüşə atılıb, erməni işğalçılarına qarşı cəsurluqla vuruşub. Onun döyüş yolu Murovdağ yüksəkliyi, Füzuli və Cəbrayıl rayonlarının ərazilərindən keçib.

Cahidlə birgə döyüşmüş gizir Sakit Fərzəliyev (17074 saylı hərbi hissə), müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları baş çavuş Malik Niftəliyev (17074 saylı hərbi hissə) və baş əsgər Fərrux Alagözovla (17072 saylı hərbi hissə) söhbət zamanı onun vətənpərvər, iradəli və qətiyyətli olduğunu söylədilər. Qorxmadan düşmən postlarının üzərinə həmlələr etdiyini, sərrast atışları ilə onun bir sıra atəş nöqtələrini susdurduğunu, canlı qüvvə və texnikasına tutarlı zərbələr vurduğunu bildirdilər.



Döyüşçüləri ruhlandıraraq, o, "biz elə vuruşmalıyıq ki, işğalçıların tapdağında bir qarış torpağımız qalmasın" deyib. Murovdağ yüksəkliyi uğrunda mürəkkəb relyef, bəzən əlverişsiz hava şəraiti səbəbindən döyüş tapşırıqlarının yerinə yetirilməsinin bütün çətinliklərinə baxmayaraq, Cahidin olduğu qrup və digər qruplar da mətinlik nümunəsi nümayiş etdiriblər.

Gizir S.Fərzəliyev və baş çavuş M.Niftəliyevin sözlərinə görə, Murovdağ döyüşlərindən birində Cahid düşmən mərmisinin partlayış dalğası nəticəsində kəllə-beyin travması alsa da, təxliyyə edilməsinə razılaşmayıb, göstərilən tibbi yardımdan sonra döyüşçülərin yanına qayıdıb.

Füzuli-Cəbrayıl zonasında da ağır döyüşlər gedib. Bu bölgədə də hərbi qulluqçularımızın qarşısına qoyulan döyüş tapşırıqları erməni işğalçılarının müdafiə xəttinin yarılması, onların mövqelərinin ələ keçirilməsi, canlı qüvvə, texnika və silah-sursatlarının məhv edilməsi olub. Təcavüzkarın illərlə qurduğu və möhkəmləndirdiyi mövqeləri darmadağın etməyi bacaran döyüşçülərimiz müxtəlif çaplı silahlardan şiddətli atəşə məruz qalıblar. Baş əsgər F.Alagözov məlumat verdi ki, göstərilən istiqamətdə Cahidlə birgə döyüş yolu davam edib. 2020-ci ilin oktyabr ayının ilk günlərində bizim qüvvələrin Füzuli və Cəbrayıl rayonlarının düşmənin nəzarətindəki ərazilərinə istiqamətlənən hücum əməliyyatları səngiməyib. Həmin döyüşlərdən birində düşmən minaatanından atılan mərminin yaxınlığında partlaması nəticəsində gizir C.Tağızadə ağır yaralanaraq şəhid olub.

17074 saylı hərbi hissə komandirinin 13.10.2020-ci il tarixli müvafiq əmrindən çıxarışda, habelə Bərdə Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilən 08.10.2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə, eləcə də digər sənədlərdə gizir C.Tağızadənin 03.10.2020-ci ildə Füzuli rayonu ərazisində hərbi əməliyyat zamanı partlayış səbəbindən həlak olduğu barədə qeydlər öz əksini tapıb.

Şəhid hərbi qulluqçumuz doğma kəndinin qəbiristanlığında dəfn olunub. Mirzalıbəyli kəndindən 4 nəfər Vətən müharibəsində şəhidlik zirvəsinə ucalıb. Cahidin müharibədə döyüşərək yaralanan qohumları var.

Azərbaycan Respublikası Prezidentinin 15.12.2020-ci il tarixli, 29.12.2020-ci il tarixli müvafiq sərəncamları ilə gizir C.Tağızadə ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Mərhumun Nərmin və Nihad adlı 2 övladı yadigar qalıb. Nərmin məktəbdə 2-ci sinifdə oxuyur, Nihad isə məktəbəqədər hazırlıq kursuna gedir. Onlar vətənpərvər ruhda böyüyəcək, torpaqlarımızı uzun illər işğal altında saxlayan, şəhər və rayonlarımızı, o cümlədən, Bərdəni müxtəlif növ raketlərdən atəşə tutaraq dağıntılara məruz qoyan, dinc sakinləri qətlə yetirən azğın düşmənə qarşı son nəfəsinədək mərdliklə vuruşmuş atalarını, onun kimi igidləri daim qürurla anacaqlar.

Şəhidin atası V.Tağızadə söylədi ki, Cahid döyüş bölgəsindən vaxt tapıb mobil telefonla evə zəng edəndə "narahat olmayın, hər şey yaxşı olacaq, biz irəliləyirik" deyib. Valideyn üçün övlad itkisi sözlə təsvir edilə bilməyəcək ağrı-acıdır. Ancaq şəhid atası olmaq mənəvi ucalıqdır. "Vətən sağ olsun!"- deyən belə valideynlərə ehtiramımız sonsuzdur.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**Yalçın Abbasov**

*Qazilərimiz*

# "Çox şükürlər olsun ki, bizə Qələbə sevinci yaşamaq nəsib oldu"

44 gün davam edən Vətən müharibəsində ölkəmizdə yaşayan, Azərbaycan vətəndaşı olan bütün xalqların nümayəndələrinin yaxından iştirak etdiyi və düşmən üzərində qazanılan Qələbəyə öz töhfəsini verdiyi hər birimizə məlumdur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin çıxışlarının birində qeyd etdiyi kimi: "Bütün Azərbaycan xalqı, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bir yumruq kimi birləşərək düşməni məğlub edib və torpaqlarımızı işğaldan azad ediblər".

"Qazilərimiz" rubrikasının budəfəki qəhrəmanı milliyyətcə ləzgi olan və Vətən müharibəsində ağır yaralanaraq sol qolunu itirən cəsur silahdaşımız çavuş Abuyev İlkin Elxan oğludur.

Çavuş İ.Abuyev 1998-ci il avqustun 29-da Qusar rayonunun Atluxan kəndində anadan olub. Orta təhsilini böyüyüb boya-başa çatdığı Atluxan kənd tam orta məktəbində alıb. Müddətli həqiqi hərbi xidmətini 2016-2018-ci illərdə Daxili Qoşunların 25031 saylı hərbi hissəsinin komendant bölüyündə keçib. Hələ uşaq yaşlarından hərbi xidmətə böyük marağı olduğundan, Daxili Qoşunların 12318 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətdə qalaraq, Vətən qarşısında olan şərəfli borcunu yerinə yetirməkdə davam edib.

2019-cu ilin sentyabr ayından 2020-ci ilin fevral ayınadək qardaş Türkiyə Respublikası Jandarm Baş Komandanlığının Jandarm Komando Məktəbi və Təlim Mərkəzi Komandanlığında keçirilən "Gizir komando təməl kursu"nda təhsil alıb.

2020-ci ilin fevral ayından 25033 saylı hərbi hissədə xidmətini davam etdirən çavuş İ.Abuyev yaralandığı günədək xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı kimi vəzifə borcunu ləyaqətlə yerinə yetirib. Xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı, hərbi intizamı və müsbət fərdi keyfiyyətləri ilə fərqlənən hərbi qulluqçu kimi hərbi hissə komandanlığı tərəfindən bir neçə dəfə mükafatlandırılıb.





Bir xüsusi təyinatlı kimi müqəddəs torpaqlarımızı düşmən tapdağından azad etmək uğrunda başlayacaq döyüşlərdə fəal iştirak etmək İlkinin də ən böyük arzularından biri olub. Vətən uğrunda bu gün də canından keçməyə hazır olduğunu deyən silahdaşımız Füzuli və Şuşa istiqamətlərində aparılan hərbi əməliyyatlarda fəal iştirak edib. İlk döyüşü isə 2020-ci il oktyabrın 17-də Füzuli istiqamətində, "Karyer" deyilən ərazidə olub: "Burada düşmənin "Beton post" deyilən möhkəmləndirilmiş mövqeləri istiqamətində baş vermiş şiddətli döyüşdə dəstəmizin cəsur hərbi qulluqçularından kiçik gizir Anar Məmmədov qəhrəmancasına şəhid oldu, digər silahdaşımız çavuş Elvin Abbasov isə ağır yaralandı. Lakin buna baxmayaraq, düşməni məhv edərək strateji əhəmiyyətli mövqelərini tutmağa müvəffəq olduq. Bundan sonrakı döyüş tapşırığımız isə Şuşanın azad olunması oldu.

Şuşa istiqamətində təxminən 4-5 gün piyada, düşmənin xəbəri belə olmadan, çətin keçilə bilən dağlıq-meşəlik, sıldırım qayalıq yollarla irəliləməli olduq. Nəhayət, çətinliklə da olsa, qrup komandirimiz kapitan Taleh Rüstəmlinin rəhbərliyi altında təyin olunmuş vaxtda, qarşımıza qoyulan tapşırığa uyğun olaraq, şəhər ətrafındakı yüksəklikdə mövqe tutduq və növbəti əmri gözləməli olduq. Dəhşətli dərəcədə yorulmuşduq. Səhər ala-qaranlıqda düşmən üzərinə hücuma keçməli idik. Lakin gecə saatlarında olduğumuz mövqelər və ətraf ərazilər ermənilər tərəfindən müxtəlif çaplı silahlardan, o cümlədən tank və minaatanlardan güclü atəşə məruz qaldı. Bu vaxt yerimi dəyişmək istəyirdim ki, yanıma düşən tank mərmisinin qəlpəsi sol qolumu ağır yaraladı. Şiddətli ağrıdan sanki bir anlıq başıma mismar batırdılar. Əvvəl nə baş verdiyini bilmədim. Sonra baxıb gördüm ki, sol qolum yoxdur. Bir tərəfdən zülmət qaranlıq, digər tərəfdən də yağış leysan kimi tökürdü. Göz-gözü görmürdü. Atıcı-sanitarlardan çavuş Famil Məmmədov (Vətən müharibəsi zamanı Şuşa istiqamətində gedən döyüşlərdə yaralanıb), çavuş Zeymud Mustafayev və 16075 saylı hərbi hissənin hərbi qulluqçusu çavuş Tahir Babayev mənə ilkin tibbi yardım göstərərək, ağrıkəsici iynə vurub, jqutla qanaxmamı dayandırıb, yaramı tənziflə sarıdılar.

Sonra döyüşçü yoldaşlarımın köməyi ilə məni yaralılarımızın saxlanıldığı otel kimi bir evə gətirdilər. 3 gün burada qaldıqdan sonra, noyabrın 9-u axşam oradan təxliyyə olunduq. Əvvəlcə bizi Hadrut qəsəbəsinə, burada tibbi yardım göstərildikdən sonra Füzuli Rayon Xəstəxanasına, oradan isə Bakıya, Daxili Qoşunların Hərbi Qospitalına gətirdilər".

İlkini üzən ən ağrılı hadisə isə yaralandığı zaman birgə xidmət etdiyi iki döyüşçü yoldaşının onun yanında eyni anda həlak olmasıdır: "Çox təəssüflər olsun ki, mən yaralandığım vaxt dəstəmizin cəsur döyüşçülərindən baş çavuş Allahyarov Vüsal Şakir oğlu və çavuş Orucov Afər Yafət oğlu düşmənin atdığı tank mərmisinin partlaması nəticəsində eyni anda şəhid oldular. Bundan əlavə, bu döyüşdə dəstəmizin digər cəsur hərbi qulluqçusu, mənim də ən yaxın dostum olan əsgər* Məmmədov İsmayıl Fərhad oğlu gözlərini əbədi yumaraq şəhidlik zirvəzinə yüksəldi".

Vətən uğrunda sol qolunu itirən cəsur qazimizin təsəllisi isə dəmir yumruqtək birləşərək, düşməni məğlubiyyətə uğradaraq müqəddəs torpaqlarımızı azad etməyimizdir: "Çox şükürlər olsun ki, bizə Qələbə sevinci yaşamaq nəsib oldu. Qalib ölkənin vətəndaşı olmağımla yalnız qürur duyuram".

Azərbaycan Respublikası Prezidentinin 18.12.2020-ci il tarixli, 25.12.2020-ci il tarixli, 29.12.2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Abuyev İlkin Elxan oğlu "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

25033 saylı hərbi hissənin "Gürzə" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində xüsusi həmlə qrupunun komandiri, "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edilmiş kapitan Taleh Rüstəmli (Vətən müharibəsi zamanı Şuşa istiqamətində gedən döyüşlərdə yaralanıb) çavuş İ.Abuyevin qrupun nümunəvi xidmət edən fəal atıcısı olması ilə yanaşı, həm də döyüş meydanında əsl vətənpərvər hərbi qulluqçusu kimi özünü təsdiq etdiyini bildirdi: "Dəstəmizin Vətən müharibəsində öz qorxmazlığı və mərdliyi ilə əsl qəhrəmanlıq nümunəsi göstərən qazi hərbi qulluqçularından biri də çavuş İlkin Abuyevdir.

Dəstəmizdə xidmətə başladığı qısa bir müddətdə vətənpərvərliyi, yüksək döyüş hazırlığı, peşəkarlığı, nümunəvi intizamı ilə bütün kollektivin hörmətini qazanıb. Çavuş İ.Abuyevin Vətən müharibəsi zamanı göstərdiyi şücaət nəinki xüsusi təyinatlılar, eləcə də bütün hərbi qulluqçular üçün örnəkdir. İlkin kimi cəsur qazi hərbi qulluqçularımızla qürur duyur, tezliklə hər birinin sağlamlıqlarına qovuşmalarını arzulayırıq".

Məlumat üçün bildirək ki, "APA" TV saytının "YouTube" internet portalı vasitəsilə yayımlanan xəbər proqramında, jurnalist Sevinc Vaqifqızının təqdimatında "Qolunu itirən xüsusi təyinatlı: Şuşaya doğru 4-5 gün piyada yol getdik" adlı süjetdə çavuş İ.Abuyevin döyüş yolu barədə izləyicilərə məlumat verilib.

Sonda Respublika Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin çıxışlarının birində qazilər barədə səsləndirdiyi çox dəyərli sözləri qeyd etmək istəyirəm: "Yaralanan əsgərin yarası hər bir azərbaycanlının yarasıdır".

Adını şanlı hərb tariximizə öz fədakarlığı ilə yazan cəsur qazimizə bundan sonrakı həyatında uğurlar diləyirik.

**mayor Anar Əhmədov**

4-2_Layout 1 29.04.2021 16:46 Page 1



# UÇUŞLARA RƏHBƏRLİK QRUPUNUN ŞƏXSİ HEYƏTİ PEŞƏKARLIĞI İLƏ SEÇİLİR

Məlumdur ki, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı şəxsi heyətin, eləcə də maddi vəsaitlərin əməliyyat yerinə vaxtlı-vaxtında daşınması olduqca zəruridir. Bu baxımdan qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsində Daxili Qoşunların Helikopter Eskadriliyasının rolu əvəzolunmazdır. Xüsusi həmlə, paraşüt-desant və xilasetmə qrupları ilə birgə fəaliyyətlər, havadan axtarış-xilasetmə işlərinin aparılması, şəxsi heyətin havadan dəstəklənməsi, yaralı və xəsarət alanların təxliyyəsi Helikopter Eskadriliyasının əsas vəzifələrindəndir.



Bu gün şəxsi heyət qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlir, desək, yanılmarıq. Hərbi qulluqçular peşə hazırlıqlarının daha da artırılması istiqamətində hər zaman əzmlə çalışır, istifadədə olan helikopterlərin daima uçuşa hazır, saz vəziyyətdə saxlanılmasını təmin edirlər. Hərbi hissə özünün savadlı və bacarıqlı hərbi qulluqçuları ilə də fərqlənir. Onlardan biri kapitan Ayaz Mikayılovdur.

O, 1989-cu il iyul ayının 20-də Bakı şəhərində doğulub. 2007-ci ildə Bakı şəhərindəki 275 saylı tam orta məktəbi bitirib. 2007-2011-ci illərdə Milli Aviasiya Akademiyasında "Uçuşların təhlükəsizliyinin təşkili" ixtisası üzrə ali təhsil alıb. 2011-2013-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Daxili Qoşunlarda xidmətə başlayanadək 2013-2015-ci illərdə Heydər Əliyev adına Hava Limanının Aviasiya təhlükəsizliyi xidmətində uçuşların təhlükəsizliyinin təmini üzrə mütəxəssis işləyib. 2015-ci ilin oktyabr ayından Daxili Qoşunların 17077 saylı hərbi hissəsində xidmət edir. 2019-cu ildən uçuşlara rəhbərlik qrupunun rəisidir.

Qrup rəisi kapitan A.Mikayılov bildirdi ki, rəhbərlik etdiyi qrup öz işini "Uçuşların aparılması haqqında Əsasnamə"yə, əsas uçuş qaydalarına və digər mühüm rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edir. O, uçuşlarda iştirak edən bütün şəxsi heyətin rəisi hesab olunur. Uçuşdan bir gün əvvəl tapşırıqlar alır. Uçuşların yerinə yetirilməsi üçün plan-cədvəlin tərtib olunmasında yaxından iştirak edir, eyni zamanda, uçuş heyətilə məşqlər keçirir.

Hərbi qulluqçumuz onu da vurğuladı ki, uçuşlar zamanı start komanda məntəqəsində 3 qrup birgə fəaliyyət göstərir ki, onlardan biri və önəmlisi uçuşlara rəhbərlik qrupudur. Uçuşlara rəhbərlik qrupu işini Aviasiya-meteroloji və Dispetçer xidmətləri ilə birgə qurur.

Uçuşdan öncə tapşırığın həyata keçiriləcəyi ərazi üzrə hava şəraiti ətraflı öyrənilir, rabitə vasitələrinin sazlığı yoxlanılır. Eyni zamanda, hər bir hərbi qulluqçunun tibbi müayinədən keçirilməsi təmin olunur.

Sonra uçuş günü aidiyyəti qurumlardan icazə və uçuş şərtləri alınır. Ardınca uçuşların idarə edilməsinə başlanılır. Ekipaj borta oturur, mühərriklərin işə salınmasına icazə istəyir. Qrup rəhbəri təyin olunmuş vaxtda qalxışa icazə verir. Bu zaman qrup rəisi start komanda məntəqəsində uçuşların həyata keçirilməsini vizual olaraq izləyir, mütəmadi olaraq pilotların tapşırıqları düzgün yerinə yetirmələrini nəzarətdə saxlayır.

O, həmçinin, uçuş zamanı heyətlə rabitə vasitələri ilə əlaqə saxlayır və ehtiyac yarandıqda təlimata uyğun ekipaja köməklik göstərilməsini təmin edir. Tapşırıqların yerinə yetirilməsində nöqsanlar olarsa, onların qeydiyyatını aparır. Həmin nöqsanlar uçuşun sonunda keçirilən birgə müşavirədə müzakirə olunur və gələcəkdə onların təkrarlanmaması üçün konkret tapşırıqlar verilir. Lazım gələrsə, bu istiqamətdə əlavə nəzəri və praktiki məşğələlər hazırlanıb keçirilir.

**kapitan Xədicə Hacızadə**

*Nümunəvi xidmət*

# DÖYÜŞ YOLU KEÇƏN ATICI-SANİTAR

Bu gün işğaldan azad olunan torpaqlarımızda üçrəngli bayrağımızın dalğalanmasında 16075 saylı hərbi hissənin xüsusi təyinatlılarının da əməyi az deyil. Məlum olduğu kimi, hər xüsusi təyinatlı qrupun atıcı-sanitarı olur. Onun əsas vəzifəsi yaralanan hərbi qulluqçulara ilkin tibbi yardım göstərmək və dərhal döyüş meydanından təxliyyə etməkdir. Bu vəzifədə xidmət edən çavuş Elvin Məmmədovla həmsöhbət oldum. O, həm xidməti fəaliyyəti, həm də Vətən müharibəsi zamanı döyüş yolu haqqında danışdı.




Çavuş E.Məmmədov 1993-cü il oktyabrın 14-də Ağdaş rayonunun Ərəbocağı kəndində anadan olub. Orta təhsilini doğulduğu kənddə alıb. 2011-ci il oktyabrın 17-də Vətən qarşısında borcunu yerinə yetirmək üçün Daxili Qoşunların 12318 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlayıb. Hərbi andiçmədən sonra xidmətini 16075 saylı hərbi hissənin təminat bölüyündə atıcı-telefonçu vəzifəsində davam etdirib. Özünün və ailəsinin istəyi ilə Daxili Qoşunlarda xidmətini davam etdirmək qərarını verən çavuş E.Məmmədov həmin hərbi hissədə xüsusi vasitələrin tətbiqi bölməsində müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib. Uşaqlıq arzusu xüsusi təyinatlı kimi xidmət etmək olan çavuş E.Məmmədov 2015-ci ildə hərbi hissənin xüsusi təyinatlı bölməsində atıcı-sanitar vəzifəsinə təyin edilib.

2020-ci ilin sentyabr ayının 29-dan oktyabr ayının 3-nə kimi Füzuli və Cəbrayıl rayonları istiqamətində bir neçə döyüş tapşırığının yerinə yetirilməsində qətiyyət göstərən çavuş E.Məmmədov özünün yaralandığını belə xatırladı: "Cəbrayıl rayonunun Aşağı Maralyan kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirirdik. Həm də yaralanan hərbi qulluqçulara ilkin tibbi yardım və onların təxliyyə edilməsinə köməklik göstərirdim. Düşmənin atəşi nəticəsində mən minaatan qəlpəsinə tuş gəldim. Həmin an yerə yıxıldım. Elə oradaca döyüş yoldaşlarım mənə ilk tibbi yardım göstərdilər. Mən döyüş meydanından təxliyyə olundum".

Azərbaycan Respublikası Prezidentinin 24 dekabr 2020-ci il tarixli sərəncamı ilə çavuş Elvin Məmmədov "Cəbrayılın azad olunmasına görə" medalı, bununla yanaşı, Azərbaycan Respublikası müdafiə nazirinin 28 dekabr 2020-ci il tarixli müvafiq əmri ilə 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif olunub.

Komandirləri və döyüşçü yoldaşları da Elvinin vətənpərvərliyi və əzmkarlığı ilə qürur duyurlar.

**kapitan Sadıq Rəfiyev**

# Xidməti itlərin təlimi və xüsusi hazırlığı diqqətdə saxlanılır

Daxili Qoşunların qarşısına qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi üçün xidməti heyvanlardan, o cümlədən, xidməti itlərdən geniş istifadə olunur.



67987 saylı hərbi hissədə xidməti ezamiyyətim zamanı xidməti itlərin yetişdirilməsi, təlimi, müxtəlif tapşırıqların yerinə yetirilməsi üzrə istifadə olunması, sağlamlıqlarının qorunub saxlanılması haqqında daha geniş məlumat əldə etmək məqsədilə qoşunların xidməti itlərin yetişdirmə məntəqəsində oldum. Məntəqənin ərazisinin təmizliyi və gigiyena qaydalarına ciddi riayət olunması məntəqə rəisinin və burada xidmət aparan hər bir hərbi qulluqçunun diqqət yetirdiyi məsələlərdəndir.

Xidməti itlərin yetişdirmə məntəqəsinin rəisi-müəllim mayor Pərviz Əliyevlə xidmətin təşkili barədə söhbət etdik. Mayor P.Əliyev xidməti itlərin yetişdirmə məntəqəsində halhazırda alman ovçarkası və Belçika malinuası cinsinə mənsub xidməti itlərin saxlanıldığını və onlardan müxtəlif profillər üzrə istifadə edildiyini qeyd etdi.

Məntəqə rəisi dedi ki, itlərin təlimi bacarıq və təcrübə tələb edir: "Hər itin öz təlimçisi var. Çünki itlə təlimçi biri-birinə adaptasiya olunmalıdır. Təlimçi hər gün itlərin qidasına, təmizliyinə diqqət yetirir".

Məntəqədə olan xidməti itlər müxtəlif istiqamətlərdə - post-patrul xidmətinin aparılması, qarovul və mühafizə xidməti, kütləvi iğtişaşların qarşısının alınması, silahlı cinayətkarların axtarılması və tutulması, partlayıcı maddələrin və silah-sursatın tapılması üzrə hazırlanaraq



təlimlər keçirilir və zəruri hallarda xidmətdə geniş istifadə olunur. Həmçinin, beynəlxalq əhəmiyyətli tədbirlərdə xidməti itlərin əməyindən geniş istifadə olunduğunu deyən mayor P.Əliyev yaşayış və qeyri-yaşayış obyektlərində təhlükəsizliyin təmin olunması üçün partlayıcı maddələrin aşkar edilməsi üzrə xidməti itlərin hazırlandığını vurğuladı.

Günün nizam qaydalarına uyğun gündəlik olaraq xidməti itlərə iki dəfə qulluq göstərilir. Göstərilən qulluğa əsasən xidməti heyvanların yemlənməsi, suvarılması, gəzintinin təşkil olunması, daranması və s. daxildir. Qeyd edək ki, xidməti heyvanların sağlamlığının qorunması da vacib şərtdir. Bu baxımdan məntəqədə xidməti itlərin sağlamlığı daim nəzarətdə saxlanılaraq, profilaktik baytarlıq tədbirləri vaxtlı-vaxtında həyata keçirilir.

Bundan əlavə, 67987 saylı hərbi hissənin tibb xidməti tərəfindən müvafiq plana əsasən, həftədə bir dəfə məntəqənin ərazisində ümumi profilaktik-gigiyenik tədbirlər görülür. Bu tədbirlərin vaxtlı-vaxtında yerinə yetirilməsi xidməti itlərin qorunub saxlanılması və həyatı baxımından son dərəcə vacib amillərdəndir.

Qarşıya qoyulmuş tapşırıqların xidməti itlər tərəfindən müvəffəqiyyətlə yerinə yetirilməsi onlarla təşkil olunub keçirilən təlimlərin keyfiyyətindən birbaşa asılıdır. Bu baxımdan təlimçilərin bilik səviyyəsinin yüksək olması və praktiki təcrübəyə yiyələnmələri başlıca şərtdir.

Hazırlanmış müvafiq proqrama əsasən, təlimçilərin biliklərinin artırılması məqsədilə ixtisas hazırlığı üzrə məşğələlər, bir qayda olaraq, məntəqə rəisi tərəfindən keçirilir, əsasən ümumi və xüsusi təlimin metodikası tədris olunur. Xidməti itlərin təlimi isə məntəqə rəisinin rəhbərliyi altında manqa komandiri və təlimçilər tərəfindən praktik olaraq təşkil olunub keçirilir.

Xidməti itlərin yetişdirmə məntəqəsi əməliyyatlar zamanı xidməti itlərdən istifadə olunması işinin qabaqcıl təcrübə və metodlarını öyrənir, qoşunlarda tətbiq edir. Təsdiq olunmuş proqrama əsasən, peşəkar təlimçilərin hazırlanması işini təşkil edir və bu istiqamətdə hərbi hissələrə köməklik göstərir.

Məlumat üçün qeyd edək ki, 67987 saylı hərbi hissənin xüsusi təyinatlı və xüsusi vasitələrin tətbiqi bölmələrinin heyvan təlimçiləri də ixtisas hazırlığı üzrə bilik və bacarıqlarını artırmaq məqsədilə məntəqədə keçirilən məşğələlərə cəlb olunurlar.

Məntəqə rəisi keçirilən nəzəri və praktiki məşğələlərdə, eləcə də xidməti fəaliyyəti və intizamı ilə fərqlənən hərbi qulluqçuların adlarını da qeyd etdi. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları - baş çavuş Vüsal Abdıyev, baş əsgər İmaməddin Şükrəmli və əsgər Əmrah Əliyevin qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəldiklərini, öz təcrübələrini yeni gəlmiş heyvan təlimçiləri ilə bölüşdüklərini bildirdi.

Son olaraq qeyd edək ki, məntəqədə heyvan təlimçilərinin peşə hazırlığının artırılması və xidməti itlərlə keçirilən təlimlərin təkmilləşdirilməsi yönündə görülən işlər müsbət nəticələrə zəmin yaradır.

**kapitan Sadıq Rəfiyev**

# Əsas vəzifə texnikanın sazlığını təmin etməkdir

Daxili Qoşunların avtomobil və zirehli texnika təmiri bazası yarandığı vaxtdan bugünədək uğurlu fəaliyyət göstərir.



Təmir bazasının əsas vəzifəsi Daxili Qoşunların balansında olan nəqliyyat vasitələrinin təmirinin həyata keçirilməsidir. Hərbi hissələrdə istismar müddəti başa çatmış, ləğv olunması və sökülməsi barədə qərar verilmiş nəqliyyat vasitələrinin, habelə onların hissə, mexanizm və aqreqatlarının saf-çürük edilməsində də baza yaxından iştirak edir.

Avtomobil və zirehli texnika təmiri bazasının rəisi vəzifələrini icra edən baş leytenant Vasif Ələsgərov bildirdi ki, bazanın şəxsi heyəti üzərinə düşən vəzifələri dərk edir, qoşunların balansında olan bütün növ nəqliyyat vasitələrinin saz vəziyyətdə saxlanılması üçün tədbirlər görür. Görülən tədbirlər daim daxili qoşunlar komandanlığı tərəfindən diqqət mərkəzində saxlanılır.



Təmirə ehtiyacı olan nəqliyyat vasitələri hərbi hissənin nümayəndəsi tərəfindən bazaya təhvil verilir və nəzərdə tutulmuş texniki şərtlərə əsasən qəbul edilir.

44 gün davam edən Vətən müharibəsində də təmir bazası öz təyinatı üzrə vəzifələri peşəkarcasına yerinə yetirib. Məlumdur ki, qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi döyüş hazırlığının yüksək olması ilə yanaşı, şəxsi heyətin, silah-sursatın və digər növ texnizatın əməliyyat rayonuna təhlükəsiz, eləcə də vaxtında çatdırılmasından birbaşa asılıdır. Bu baxımdan avtomobillərin və zirehli texnikaların saz vəziyyətdə saxlanılması, zədələnmiş avtomobillərin dərhal təmiri mühüm əhəmiyyət kəsb edir. Daxili Qoşunların Baş İdarəsinin maddi-texniki təminat idarəsində avtomobil və zirehli texnika şöbəsinin rəisi polkovnik Fuad Alıyev təmir bazasının bu işin öhdəsindən bacarıqla gəldiyini söylədi.

Vətən müharibəsində avtomobillərin sazlığını hər an yüksək səviyyədə saxlamaq və yarana biləcək nasazlığın dərhal aradan qaldırılması məqsədilə şəxsi heyət, silah-sursat və təminat aparan karvanlarda Daxili Qoşunların Baş İdarəsinin avtomobil və zirehli texnika şöbəsinin zabitləri və təmir bazasının hərbi qulluqçuları olublar. Onlardan baş leytenant V.Ələsgərov, gizir Tural Vəliyev və baş çavuş Polad Əsədovun zədələnmiş avtomobillərin dərhal təmir olunmasında əməyi təqdirəlayiqdir.

Avtomobil və zirehli texnika şöbəsi rəisinin müavini polkovnik-leytenant Elşad Əliyev məlumat verdi ki, sentyabr-noyabr aylarında davam etmiş Vətən müharibəsi zamanı hərbçilərimiz düşmənin xeyli sayda texnikasını ələ keçiriblər. Düşmənin məhv edilən, eləcə də ərazidə qalan hərbi texnikaları, əsasən URAL, UAZ markalı minik avtomobilləri hərbi qənimət kimi götürülərək, 25032 saylı hərbi hissəyə və təmir bazasına aparılıb, orada təmir işləri görülüb, xarici görünüşləri qaydaya salınaraq yenidən istifadəyə hazırlanıb. Təmir bazasından 25032 saylı hərbi hissəyə ezam olunan baş çavuşlar Orxan Əliyev və Emil Kamilov bunun üçün səylə çalışıblar.

Öz işinin peşəkarı olan avtomobil və zirehli texnika təmiri bazasının bütün uğurları çalışqanlığın və yüksək icraçılığın sayəsində qazanılıb.

**kapitan Sadıq Rəfiyev**

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000